# Cənab Baltik-Yannis Çaqkste

Məqalələrimin birində mən Estoniyanın 1-ci prezidenti, çox böyük əzabəziyyət çəkən, hətta əziyyətlərdən qurtulmaq üçün ölmək belə istəyən Konstantin Pats barədə yazmışdım.

Mən tarixin ən böyük vətəndaş müharibələrindən biri olan Rusiya vətəndaş müharibəsində iştirak edənlər barədə yazmağa başlamışam. Bu silsilənin 1-ci məqaləsi Aleksandr Kerenski, 2-ci məqaləsi Konstantin Pats, 3-cü məqaləsi isə hazırkı məqalədir.

Bu məqalədə görünüşü və məğrurluğu ilə "Cənab Baltik" adlandırdığım Latviyanın 1-ci prezidenti Yannis Çakstedən bəhs olunacaq.

Yannis Kristaps Çakste 14 sentyabr 1859-cu ildə indiki Latviyanın Yelqava şəhərinin Sesava Pariş kəndində bir fermerin ailəsində anadan olub. O, ailənin 3-cü uşağı idi, ondan əvvəl 1853-cü ildə qardaşı Yanni, 1856-cı ildə bacısı Anna Mariya, ondan sonra isə 1865-ci ildə Hermne Otiliya adlı bacısı dünyaya gəlmişdi. Atası sonradan Zimis soyadı alanda, Yannis soyadını dəyişdirməmək qərarına gəldi. Çakstenin valideynləri Berstele malikanəsini icarəyə götürdü, burada bir neçə il qaldıqdan sonra Auçis malikanəsini aldılar.

Yannis Müqəddəs Anna İbtidai Məktəbində ilk təhsilini aldı. Sonra Yelgava Gimnaziyasında təhsilini davam etdirdi. Gimnaziya sonradan Petrina Akademiyası olaraq fəaliyyətini davam etdirdi.

Gimnaziyada şagirdlərin 60 faizi almanlar idi. Latviyalıların çoxu axşam dərsləri alırdılar. Çakste 1882-ci ilin yazında gimnaziyanı bitirdi və Moskvaya getdi.

Moskvada Çakste üçün xüsusi mənzil ayırmışdılar. Çünki, o vaxt tələbələrə çox diqqət göstərirdilər.

Çakste Moskvada latviyalı iqtisadçı Krisyanis Voldemars ilə görüşdü, öz təşəbbüsü ilə 31 oktyabr 1883-cü ildə Moskvada Latviya tələbələri birliyini təsis etdirdi. Şərq Akademiyaları Birliyi yaradılarkən Çakste bu birliyin sədri oldu. O, burada çoxlu akademiyaları araşdırdı, bu barədə məqalələr yazdı. Sonralar 75 il bu birlik fəaliyyətindən qalmayacaqdı, Çakstedən oğluna, oğlundan nəvəsinə ötürüləcəkdi...

1887-ci ildə Çakste Jelqava Latviya cəmiyyətinin sədri seçildi və 1901-ci ilə qədər bu vəzifəni icra etdi. O, Arıçılar Birliyinin və Latviya Qızıl Xaç Komitəsinin fəalı idi. Daha sonralar isə o, Jelqava Kənd Təsərrüfatı İdarəsinin də fəalı oldu.

15-18 iyun 1895-ci ildə Çakstenin səyləri nəticəsində Latviya Musiqi Festivalı Jelqavada keçirildi. Bu, Jelqavada keçirilən ən sanballı tədbir idi. Çakste festivala dəyən 4000 rubl zərəri də özü ödəmiş, bunu heç kəsə bildirməmişdir ki, çəkiləcək xərcə görə insanlar festivaldan imtina etməsinlər.

Çakste "Tviya" qəzetini də aldı və baş redaktorluq vəzifəsini icra etdi. Əvvəlki araşdırmalarımda da göstərliyim kimi bir neçə ölkənin ilk prezidenti əvvəllər jurnalistlik fəaliyyəti ilə məşğul olub.Belə ki, Estoniyanın prezidenti Konstantin Pats, Türkiyə Prezidenti Atatürk, Litva prezidenti Antanas Smetonas, Gürcüstan prezidenti Noe Ramişvili, Azərbaycan Xalq Cümhuriyyətinin Başçısı Rəsulzadə və digərləritutduqları vəzifələrindən əvvəl jurnalistlikfəaliyyəti ilə məşğul olub və ya bu sahə ilə yaxın olublar.



*Çakste çıxış edir, 1926.*

1904-cü ildə jurnalistlik fəaliyyətini dayandıran Çakste rus hüququşünaslarının gizli iclasında iştirak etmişdi. Bu addımı atmaq üçün çox cəsarət tələb olunsa da lakin Çakste bunu etmişdi.

1905-ci il inqilabı Baltikə də çox təsir etdi. Çakste bütün xalqların müstəqillik üçün çırpınmasını gördükdən sonra o da Latviyanın müstəqilliyi üçün mübarizə aparmaq qərarına gəldi.

Həmin il o, Latviya müstəqillik proqramını hazırladı. Bu proqramla tez bir zamanda Latviya müstəqil ola bilərdi.

Sonra o, inqilabçı müttəhimlərin məhkəməsində onların vəkili oldu.

Lakin sosialist deyil, demokratik Latviyanın qurulması yolunda mübarizə aparan inqilabçıların məhkəməsində onların hüquqlarını müdafiə etdi.

1906-cı ildə Çakste tez bir zamanda arzusuna çatmaq istədiyi üçün bu dəfə Kurjeme şəhərindən Rusiya Dövlət Dumasının seçkilərində qalib gəldi və deputat seçildi. Polşalı siyasətçi Aleksandrs Lednikçis bir fraksiya yaratmaq fikrində idi. Çakste bu fikri muxtariyyət yaratmaqla əvəzlədi. O, bu işin tərəfdarı idi. Bu yolda çox zəhmət çəkməli idi.

Bu işinə görə Rusiyada müxalifət adlandırılan Çakste, tez-tez təqib olunurdu. 2 il sonra onu çar Nikolaya və Rusiyaya qarşı olan əksinqilabi fikirlərinə görə Rusiya Dövlət Dumasının deputatlığından məhrum etdilər və onun Dumaya gəlişinə qadağa qoyuldu.

Bundan sonra o, həbs olunacağı qorxusu ilə Stokholma qaçmağa çalışmış, lakin yola çıxarkən Jelqava həbsxanasına aparılmış və 3 ay azadlıqdan məhrum olmuşdur.

1911-ci ildə "3 aylıq azadlıqdan məhrumetmə cəzası"ndan sonra azadlığa çıxdı Çakste. Axı bu, necə ola bilər? Çünki, onu, 3 ay adı ilə aldatmış, həbs müddətini 10 ilə qaldırmış, sonra tədricən hərəkətlərinin düzəlməsinə görə müddəti azaldıb 3 il etmişdilər.

1915-ci ildə Çakste Jelqava Qızıl Xaç Komitəsinin sədri oldu. 1915-ci ilin 30-31 avqustunda Tartuda Latviya Qaçqınlara Yardım Təşkilatının qurultayında iştirak etdi və bir neçə gün Tartuda qaldı.

1916-cı ildə ikinci dəfə Stokholma qaçmağa çalışdı və bu dəfə bacardı. O, Stokholmda yaşayan baltikliləri bir yerə topladı. Həmin il latviyalıların yardımı ilə "Latviyalıların Latviyası" adlı 67 səhifəlik bir broşüra çap etdirdi. Bu broşüra qürbətdə yaşayan bütün baltiklilər arasında yayılırdı. Bu kiçik broşüra Latviyalıları azadlığa çağırırdı və müstəqillik həsrətinin ömrünü qısaldırdı.

Çakste 1917-ci ildə yenidən Tartuya qayıtdı və Kurzeme torpaq şurasının qurultayında iştiak etdi. Həmin il iki böyük inqilab baş verdi. Mart inqilabında Müvəqqəti hökumət yaradıldı. Aleksandr Kerenski Çaksteni Kurzemenin qubernatoru olaraq təyin etdi və Çaksteyə rəğbəti artdı. Kurzemenin sabiq qubernatoru inqilabçılardan qorxub Kazana qaçmışdı.

Yenə yeni bir inqilab baş verdi. Oktyabr inqilabı! Bu inqilab başlayandan sonra Çakste arzuolunmaz şəxs elan edildi və Baltikə girişinə qadağa qoyulması əmr olundu. Lakin, dəlillər əsassız olduğundan və Çakste Jelqavanı qaçqınlarla tərk etdiyindən əmr yerinə yetirilmədi. Əgər dəlillər əsassız olmasaydı, Çakste müstəqil Latviyanı qura bilməyəcəkdi. Çakste öz qorxusuna qalib gəlmişdi! Artıq Latviya müstəqil ola bilərdi!

13 oktyabr1917-ci ildə Latviya Milli Şurası yaradıldı. Çakste şuranın sədri seçildi. Bu vaxt onun Jelqavaya girişinə icazə verildi və o, uşaqlıq illərini keçirdiyi Auçi malikanəsinə illər sonra geri qayıtdı.

1918-ci ildə artıq Smetonas və Konstantin Patsla görüşdü, Latviya Respublikasını yaratdı! O, artıq arzusuna çatmışdı! Latviya küllərindən çiçək açmış, Latviya yenidən yaranmışdı!

Çakste 1919-cu ildə Paris Sülh Konfransına getdi və burada çoxlu səylər nəticəsində Amerikanın Latviyanı tanımasına nail oldu. Bu gözəl xəbərin şərəfinə iclas təşkil etdi, evində qonaqlıq da verdi. Həmin il Latviyaya qayıtdı və Xalq Şurasınınsədri oldu. Sonra isə Demokratik Mərkəzin üzvü oldu.

1 may 1920-ci ildə Latviya Konstitusiyası qəbul olundu və Təsis Məclisi açıldı! Məclisin sədrliyi həyata keçirmək üçün seçkilər oldu, Yanis Rainis və Yannis Çakstenin namizədliyi irəli sürüldü. Rekord səslə Yannis Çakste birinci oldu və Təsis Məclisinin sədri oldu!

2 il Təsis Məclisinin sədri vəzifəsini icra etdikdən sonra Latviyaya Prezident seçkisi keşirildi. Bu seçkinin nəticəsi böyük bayram olacaqdı. Təsis Məclisindəki demək olar ki, bütün insanlar Çakstenin prezident olmasını istəyirdi. Ona görə də, Çakste prezidentliyə namizədliyini irəli sürdü. Onunla birlikdə məğlubluğundan doymayan Rainis və Ulminis də öz namizədliyini vermişdi. Birinci turda Çakste ən aşağı səsi topladı.



*Latviyanın 1-ci prezidenti Yannis Çakste*

İkinci turda Çakste çox ümidsiz, Rainis isə çox lovğa idi. Lakin, qanunsuzluq etdiyinə görə Rainisin namizədliyi sayılmadı, geri götürüldü və Ulminislə Çakste namizəd olaraq qaldılar.

İkinci turda Ulminis 31 səs... Çakste isə 60 səslə, böyük bir rekordla Latviya Prezidenti seçilmişdi! Artıq özü qurduğu dövlətin prezidenti o idi, Çakste idi!

Prezidentliyi dövründə Çakste 402 qanun qəbul etdi, onlardan 261-i mütləq icra olundu. Çakste içərisində faşist Andriev Niedra da daxil olmaqla 549 məhbusu əfv etdi.

1925-ci ildə Çakste Estoniyaya rəsmi səfər etdi. Burada Patsla görüşdü, Patsa rəğbəti daha da artdı və onlar dostluq münasibətlərini daha da genişləndirərək can bir qəlb oldular. Baltik ölkələrinin dostluğu getdikcə inkişaf edir, Skandinaviyaya da çatırdı. Çakste Finlandiyaya da rəsmi səfər etmiş və Finlandiya ilə Latviya arasında olan dostluğu daha da möhkəmləndirmişdi.

Çakste 14 mart1927-ci ildə vəfat etdi. Riqa meşəsindəki qəbristanlıqda dəfn olundu.

Çakstenin zəhməti sayəsində əldə elilmiş müstəqilliyini qoruyub saxlamağı bacarmış Latviya indi Azərbaycan ilə dost və qardaşlığını daha da möhkəmləndirib! Çakstenin möhkəmləndirdiyi kimi! Qoy bu dostluq əbədi olsun.

***15.06.2020***



**Sevindik NƏSİBOĞLU**